Ərizəçilər üçün Məlumat
Ərizə barədə cavabdeh Hökumətə məlumat verildikdən sonra – barışıq mərhələsi

Cavabdeh Hökumətə ərizə haqqında məlumat verilməsi

Ərizənizə qəbul edilmə meyarı üzrə ilkin baxışdan sonra Məhkəmə öz Qaydalarının 54 § 2 (b) maddəsinə əsasən Hökuməti ərizənizin bütövlükdə yaxud irəli sürdüyünüz şikayətlərdən birinin və ya bəzilərinin qəbuledilənliyi və mahiyyəti barədə yazılı şərhlərini təqdim etməyə dəvət etmişdir. Ərizənizin bir hissəsini qəbuledilməz elan edən qərar qəbul edilibsə, bu hissədəki şikayət(lər)in baxılmasına son qoyulur və siz ərizənizin qəbul olunmayan qisminə aid əlavə şərhlər göndərməməlisiniz.

Barışıq mərhələsi

1. Hüquqi təmsilçilik və hüquqi yardım

Qaydaların 36 §§ 2 və 4 maddələrinə əsasən ərizəçi icraatın bu mərhələsində, Məhkəmə başqa qərar verməyibsə, Məhkəmədə "vəkil" tərəfindən təmsil olunmalıdır. Vəkil tapmaqda çətinlik çəkirsinizsə, yerli vəkillər kollegiyasına yardım üçün müraciət edə bilərsiniz. Hüquqi təmsilçilik üçün kifayət qədər vəsaitiniz olmadığı halda, Məhkəmənin hüquqi yardım sistemi (Qaydaların 105-ci maddəsi və əlavələr) çərçivəsində hüquqi yardım üçün müraciət edə bilərsiniz. Hüquqi yardım adətən qəliz fakt və hüquq məsələlərini əhatə edən işlərdə verilir, təkrarlanan xarakterli işlərdə verilmir. Məhkəmənin hüquqi yardım sistemi çərçivəsində edilən ödəniş bir dəfəyə ödənilən standart bir məbləğdən ibarətdir. Bu yardım hüquqi təmsilçilik xərclərinə bir yardım olaraq qəbul olunmalıdır. Nəticədə, hüquqi yardımın verilməsi o demək deyildir ki, Məhkəmə ərizəçi üçün nümayəndə təyin edəcək. Nümayəndənin tapılması və seçilməsi ərizəçinin öz öhdəsinə düşür.

Barışıq mərhələsində ərizəçi özü-özünü təmsil etməyi xahiş edə bilər. Belə bir xahiş baxılması üçün Sədrə təqdim edilir (Qayda 36 § 2 *in fine*).

2. Dostcasına həll

Sizə bəyannamə göndərilibsə

Məhkəmənin presedent hüququ və təcrübəsinə əsasən bu iş tərəflər qoşmadakı bəyannamənin şərtlərini qəbul etdiyi təqdirdə, xüsusilə də Hökumət ərizəçiyə (ərizəçilərə) dəymiş zərəri (məsrəf və xərclər daxil olmaqla) ödədiyi halda dostcasına həll vasitəsi ilə nizamlana bilər.

12 həftə ərzində Məhkəmənin Katibliyinə bəyannamədəki təklifi qəbul edib-etmədiyiniz barədə məlumat verməlisiniz. Təklifi qəbul etdiyiniz təqdirdə, qoşmadakı bəyannaməyə tarix qoyduqdan və onu imzaladıqdan sonra geri göndərin. Hökumətə də eyni şərtlərlə məktub göndərilmişdir. Qoşmada Hökumətə göndərilən bəyannamənin layihəsinin surəti göndərilir.

Sizə bəyannamə göndərilməyibsə

Hər iki tərəfdən xahiş olunmuşdur ki, 12 həftə ərzində işinizin dostcasına həlli barədə öz mövqelərini bildirsinlər və bununla bağlı hər hansı təkliflərini təqdim etsinlər (Qayda 62). Tərəflər dostcasına həll tapmaqda maraqlı olarlarsa, Katiblik dostcasına həllin şərtləri barədə tövsiyə hazırlaya bilər. Hökumət dostcasına həll üçün hər hansı bir təklif verərsə, siz Hökumətin bu təklifinə şərhlər verməyə dəvət olunacaqsınız. Qaydaların 62 § 2 maddəsinə əsasən dostcasına həll üzrə danışıqlar tam məxfi olmalıdır. Bu barədə göndərilən hər hansı bir təklif yaxud məlumat ayrıca sənəd üzərində göstərilməlidir və bu sənədin məzmununa əsas icraatla bağlı digər sənədlərdə istinad edilməməlidir.

3. Birtərəfli bəyannamə

Dostcasına həll məqsədi ilə aparılan danışıqlar nəticə vermədikdə, Hökumət birtərəfli bəyannamə təqdim edə bilər. Hökumət birtərəfli bəyannamə təqdim etdiyi halda Məhkəmə Konvensiyanın 37-ci maddəsinin § 1 (c) bəndinə uyğun olaraq şikayətə baxmağı davam etdirməyə lüzum olub-olmaması barədə qərar qəbul edir. Ərizəçi birtərəfli bəyannamənin şərtlərini qəbul edərsə, Məhkəmə işə dostcasına həll prosesi qaydasında baxır.

İcraat mərhələsi

Tərəflər yuxarıda göstərilən tarixə qədər işi dostcasına həll etməsələr, icraat mərhələsi başlayacaq. Məhkəmənin 36-cı qaydasının §§ 2 və 4 bəndlərinə uyğun olaraq, bu mərhələdə ərizəçi Məhkəmədə "vəkil" tərəfindən təmsil olunmalıdır. Dostcasına həll mərhələsində olduğu kimi, bu mərhələdə də ərizəçi özü tərəfindən təmsil olunmasını açıq şəkildə xahiş edə bilər. Belə bir xahiş baxılması üçün Sədrə təqdim edilir.